# Bölgələrdə referenduma hazırlıq mütəşəkkilliklə davam edir



❒ ***Respublikamızın şəhər və rayonlarında Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi ilə bağlı referenduma hazırlıq tədbirləri uğurla davam edir. Dairə və məntəqə seçki komissiyaları Seçki Məcəlləsinin tələblərinə, Mərkəzi Seçki Komissiyasının təlimat və tövsiyələrinə uyğun fəaliyyət göstərir, təşkilati-maarifləndirmə işlərini yüksək səviyyədə aparırlar.***

Dairə və məntəqə seçki komissiyalarının sədrləri üçün keçirilmiş seminarlardan, məntəqə komissiyalarının üzvləri üçün təşkil olunmuş treninqlərdən sonra referenduma hazırlıq işləri daha da ahəngdarlaşmışdır. Bu metodiki yardım seçki marafonunun uğurla başa çatdırılmasına zəmin yaratmış, səsvermədən başlamış protokolların tərtib olunmasınadək bütün proseslərin qüsursuz aparılması üçün zəruri peşəkarlığı təmin etmişdir. Bugünlərdə Yevlax, Goranboy, Zərdab və Laçın rayonlarındakı dairə və məntəqə seçki komissiyalarının referenduma hazırlıqla bağlı fəaliyyəti ilə tanışlıq zamanı yüksək işgüzarlığın, vətəndaş məsuliyyətinin və fəallığının şahidi olduq.

Seçicilərin referendumda iştirak hüququnun təmin edilməsi üçün dairə və məntəqələrdə bütün zəruri işlər ardıcıllıqla həyata keçirilir. Artıq seçici siyahıları dürüstləşdirilərək səsvermə məntəqələrindən asılmışdır. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsinin müqayisəli təqdimat kitabçaları seçici ünvanlarına çatdırılmışdır. Təşviqat qruplarının materialları, plakat və vərəqələri üçün lövhələr vurulmuş, toplantılar üçün yerlər ayrılmışdır. İzdihamlı yerlərdə referendumla bağlı səsverməyə çağırış şüarları, təlqinedici plakatlar asılmışdır.

## Yevlax

Rayondakı 48 və 49 saylı dairə seçki komissiyaları referenduma hazırlığın həlledici mərhələyə daxil olduğu günlərdə bütün qüvvə və səylərini kütləvi maarifləndirmə və məlumatlandırma tədbirlərinə yönəltmişdir. Dairənin 9 və 13 saylı məntəqələrində səsvermə üçün yaradılmış normal şəraitlə tanış olduq. Zəruri təmir-abadlıq işlərindən tutmuş kameraların qurulmasınadək bütün işlər yüksək səviyyədə həyata keçirilmişdir. Bugünlərdə dairə komissiyasının fəaliyyəti son hazırlığın vəziyyətini əks etdirir. Bu barədə söhbət açan 48 saylı DSK-nın sədri Yaşar Abbasov bildirdi:

– Ötən prezident, parlament, bələdiyyə seçkilərində və referendum səsvermələrinin təşkilində böyük təcrübə toplamış dairə komissiyası qarşıdan gələn ümumxalq səsverməsinə hazırlığı yüksək peşəkarlıqla davam etdirir. DSK-nın və ərazidəki 31 məntəqənin hamısı texniki- təşkilati baxımdan səsverməyə hazır vəziyyətə gətirilmişdir. 15 məntəqədə veb-kameralar quraşdırılmışdır. Sentyabrın 26-da dairə üzrə 34105 seçicinin səsvermədə iştirakının təmin edilməsi üçün onların siyahısı hazırlanmış, özləri də məlumatlandırılmışlar.

İlk dəfə səs verəcək 268 nəfərin təcrübəsizliyi nəzərə alınaraq onların hər biri ilə ayrılıqda söhbət aparılmışdır. Yaşı 80-100 arasında olan 929 seçici haqqında məlumat bir daha dürüstləşdirilmişdir. 100 yaşdan yuxarı 12 seçicinin və yataq xəstələrinin sağlamlıq vəziyyəti, onların səsvermədə iştirak imkanları öyrənilmiş, müvafiq formalar müəyyənləşdirilmişdir.

Konstitusiyaya dəyişikliklərin müqayisəli mətninin kitabçası artıq bütün seçicilərə paylanmışdır. Təşviqat qruplarının seçicilərlə görüşləri təşkil olunur. Müşahidə aparmaq üçün edilən müraciətlər diqqətlə cavablandırılır. Son hazırlıq işlərini də tələb olunan səviyyədə başa çatdırmaqla referendum üzrə səsvermənin ahəngdar şəkildə keçirilməsini təmin edəcəyik.

Rayondakı 49 saylı Yevlax-Mingəçevir dairə seçki komissiyası da bugünlərdə yüksək fəallıqla çalışır. DSK-nın sədri Etibar Hacıyev məlumat verdi ki, 38 məntəqənin 26-da Yevlax, 12-də Mingəçevir seçiciləri səs verəcəklər. Səsvermə günü 36753 seçicinin 24591-i yevlaxlı, qalanı mingəçevirli seçicilər olacaq. Onların referendum aktına öz münasibətini bildirmələri üçün lazımi şərait yaradılıb. Dairə üzrə 103 nəfər ilk dəfə səs verəcək, 601 nəfər isə 80-100 yaş arasında olan vətəndaşlardır. 5 məntəqədə veb-kameralar prosesə nəzarət edəcək.

Dairənin Xaldan orta məktəbindəki 21 saylı, Gülöyşə kənd məktəbindəki 15 saylı məntəqələrində referenduma hazırlığın yüksək səviyyədə aparıldığının şahidi olduq. Məntəqəyə gəlib- gedən seçicilərin kifayət qədər məlumatlandırılmasına əmin olduq.

## Goranboy

Rayondakı 96 saylı Goranboy-Naftalan seçki dairəsində ümumxalq səsverməsi günü 41170 vətəndaşın, 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsində isə 39098 nəfərin referendum aktına öz münasibətini bildirməsi üçün hazırlıq işləri yekun mərhələyə daxil olub. 96 saylı DSK-nın sədri Arif Abbasov bu barədə danışaraq dedi:

– Dairə üzrə məntəqələrin 40-ı Goranboy rayonunu, 5-i isə Naftalan şəhərini əhatə edir. Bütün məntəqələrdə lazımi hazırlıq işləri təqvim üzrə aparılmaqdadır. Səsvermə siyahıları məntəqələrin qarşısına vurulub. Ayrı- ayrı seçici qrupları üzrə də dəqiqləşdirmələr aparılıb. Seçicilərin səsvermə hüququnun təmin edilməsi ilə bağlı kompleks tədbirlər lazımi qaydada həyata keçirilir. Rayon mərkəzindəki 2 saylı, Dəlimməmmədli şəhərindəki 16 saylı məntəqələrin nümunəvi işi digər mətəqələr üçün də örnəndir. Güman edirik ki, seçicilərin ümumxalq səsverməsində iştirakı üçün yaradılmış normal şərait kampaniyanı yüksək mütəşəkkilliklə başa çatdırmağa imkan verəcək.

97 saylı DSK-nın sədri Faiq Məhərrəmovdan öyrəndik ki, sentyabrın 26-da 3 rayonu əhatə edən bu dairənin 28 məntəqəsində goranboylular, 25-də ağdamlılar, 3-də isə tərtərlilər səs verəcəklər. Bütün məntəqələr yüksək hazırlıq vəziyyətinə gətirilmişdir. Bu işdə müvafiq rayonların icra qurumları öz üzərlərinə düşən işləri dəqiq yerinə yetirirlər. Bugünlərdə dairənin məntəqələrində seçicilərin maarifləndirməsi ilə bağlı müxtəlif tədbirlər davam edir. Məntəqə komissiyaları öz funksiyalarını məharətlə icra edirlər.

Qızılhacılı kənd məktəbində fəaliyyət göstərən 9 saylı və Yevlax ərazisində Ağdam köçkünləri üçün təşkil olunmuş 35 saylı məntəqələrin timsalında 96 saylı DSK-nın öz seçiciləri üçün yaratdığı yüksək şəraitlə tanış olduq. Görüşdüyümüz sakinlər seçki komissiyalarının qənaətbəxş işini qeyd etdilər.



## Zərdab

92 saylı Zərdab-Ucar seçki dairəsinin 42 məntəqəsi Zərdab rayonunu, 6 məntəqəsi isə Ucar rayonunu əhatə edir. Dairə və məntəqə komissiyalarının sədrlərinin seminr hazırlığı, məntəqələrin komissiya üzvlərinin təlimatlandırılması, icra qurumlarının lazımi köməyi referenduma hazırlığın Seçki Məcəlləsinin tələblərinə uyğun qurulmasını təmin etmişdir.

Son hazırlıq işlərindən danışan DSK sədri Mehdi İsmayılov bildirdi ki, hazırda təşviqat qruplarının maarifləndirmə tədbirləri davam edir. YAP-ın təşviqat qrupu daha çox fəallıq göstərir, öz tədbirlərinə seçicilərin böyük çoxluğunu cəlb edir. Bugünədək 41070 seçicinin hamısı haqqında məlumat yenilənib. İlk dəfə səs verəcək 551 gənclə və yaşlı seçicilərlə söhbətlər aparılıb. Bütün seçicilər referendum aktının layihəsilə tanış edilib, lazımi məlumatları alıb. Seçicilərin səsverməyə şəxsiyyət vəsiqələri ilə gəlmələri üçün lazımi işlər görülüb. Bugünlərdə son dəqiqləşdirmələr aparılır, texniki hazırlıq tədbirləri bir daha yoxlamadan keçirilir.

Zərdab şəhərindəki 1-4 saylı, Qoşaoba kəndindəki 5 saylı, Çallı kəndindəki 29 saylı məntəqələrin seçiciləri ilə görüşdük. Onların referendum aktına yüksək vətəndaş münasibətinin, seçici fəallığının şahidi olduq. Dairənin seçiciləri onların iradəsi ilə təkmilləşəcək konstitusiyamızın ölkəmizin gələcək tərəqisini təmin edəcəyini yüksək inamla ifadə etdilər və buna görə sentyabrın 26- da hamılıqla səsverməyə gələcəklərini söylədilər.

## Laçın

Dağlar diyarının perik düşmüş əhalisi 24 ildən bəridir ki, seçkiləri respublikanın müxtəlif bölgələrində qarşılayırlar. Lakin önlar bütün səsvermələrdə mütəşəkkil iştiraklarıı ilə doğma yerlərə qayıdacaqları günün yaxınlaşacağına inanırlar. Laçınlı seçicilər qarşıdan gələn konstitusiya dəyişikliyi referendumuna da belə bir ümidlə gedirlər.

Laçın seçicilərinin səs verəcəkləri 102 məntəqənin 39-u Bakı şəhəri və onun ətrafında, 18-i rayon əhalisinin yığcam məskunlaşdığı Taxtakörpü ərazisində, 63-ü isə ölkənin 48 bölgəsində təşkil olunmuşdur. Ümumiyyətlə, səvermədə 45958 seçicinin iştirak etməsi nəzərdə tutulur. Rayon üzrə hazırlıq işləri barədə məlumat verən 121 saylı Laçın dairə seçki komissiyasının sədri Hüseyn Səfərov bildirdi:

– Laçın kimi köçkünlük taleyi yaşayan bir bölgənin ölkənin hər bucağına səpələnmiş seçicilərini ümumxalq səsverməsinə hamılıqla cəlb etməyin çətinliyi hər kəsə yaxşı məlumdur. Buna görə də Mərkəzi Seçki Komissiyası və Laçın Rayon İcra Hakimiyyəti dairə komissiyasının normal fəaliyyətinə hər cür kömək göstərir. DSK seçki marafonu başlayandan fəaliyyət göstərir. İndiyədək bütün məntəqələrdə səsverməyə tam hazırlıq aparılmışdır. Çalışmışıq ki, bir seçicimiz belə diqqətdən kənarda qalmasın, hamının seçki hüququ təmin olunsun.

Öyrəndik ki, bugünlərdə məntəqələr üzrə təşviqat kampaniyası uğurla davam edir, seçicilər referendum aktının mətni ilə yaxından tanış edilir. Onların təklif və mülahizələri qeydə alınır, sualları ətraflı cavablandırılır. Seçki günü uzaqda yaşayanların məntəqələrə vaxtında gətirilməsi üçün züsusi maşınlar ayrılmış, operativ rabitə əlaqəsi sahmana salınmışdır. İlk dəfə səs verəcək 696 gənc lazımi dərəcədə məlumatlandırılıb. 80-100 yaş arasında 1220 seçicinin səsverməyə gəlmə imkanları nəzərə alınıb. 9 nəfər 100 yaşdan yuxarı laçınlının referendumda iştirakı isə xüsusi nəzarətə alınıb.

Dairənin Taxtakörpü qəsəbəsindəki 86 saylı, Ağcabədidəki 83 saylı, Bərdədəki 70 saylı məntəqələrində aparılmış yüksək hazırlıq nümunəsi göstərir ki, səsvermə günü laçınlı seçicilər ölkə konstitusiyasına dəyişikliklərin qəbul edilməsinə öz münasibətlərini sərbəst ifadə edəcəklər.



***Tahir AYDINOĞLU,***
***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"***